# Mühazirə-10

## Azərbaycan Səfəvilər dövləti.

(1501-1736)

***Plan:***

*1. Səfəvilərin Ərdəbil hakimliyi.*
*2. Səfəvilər dövlətinin yaranması.*
*3. Səfəvi dövlətinin imperiyaya çevrilməsi.*
*4. Səfəvi - Osmanlı münasibətləri. Çaldıran döyüşü.*
*5. Azərbaycanın birləşdirilməsi prosesinin başa çatması.*
*6. Səfəvi - Osmanlı müharibələri (XVI əsrin II yarısı – XVII əsrin əvvəllərində)*
*7. I Şah Abbasın islahatları.*
*8. Səfəvi - Osmanlı müharibələrinin yeni mərhələsi (1603-1639).*
*9. Azərbaycanın sosial-iqtisadi həyatı (XVI əsr - XVII əsrin II yarısı)*
*10. Azərbaycan mədəniyyəti (XVI əsr – XVIIəsrin İ yarısı)*

***İstifadə ediləcək ədəbiyyat:***

*1.Azərbaycan tarixi. 7 cilddə. IV c. Bakı, 2007.*
*2.Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti.Bakı, 2004.*
*3.Həsənəliyev Z. Səfəvi dövləti. Bakı, 2000.*
*4.Məmmədov S. Azərbaycan XV – XVIII əsrin I yarısında. Bakı, 1981.*
*5.Azərbaycan XV – XVI əsrlərdə. Bakı, 1985.*
*6.Musəvi T. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI – XVIII əsrlərdə).Bakı, 1977.*
*7.Cəfərli N. Səfəvilər dövləti: hakimiyyət və idarə orqanları. Bakı, 2000.*
*8.Dadaşova R. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı, 2003.*

**Səfəvilərin Ərdəbil hakimiyyəti.**

Sufi təriqətlərindən biri olan Səfəvi dərviş ordeni Şeyx Səfiəddinin başçılığı ilə XIII əsrin sonlarında Ərdəbildə yaranmışdı.

Rəvayətə görə, Şeyx Səfiəddin imam Əlinin və Məhəmməd peyğəmbərin qızı Fatimənin 26-cı nəslinin törəməsi idi. Bütün Ərdəbil əhalisi Şeyx Səfiəddinin müridi hesab olunurdu. Səfəvi təriqətinin başçıları xalqın ağır vəziyyətini sünni hökmdarlarının qeyri-qanuni hakimiyyəti ilə bağlayırdılar. Səfəvilərin uğur qazanmasının əsas səbəbi onların oturaq əhalinin mənafeyini ifadə etməsində idi. Səfəvilərin Ərdəbil hakimliyi 1501-ci ilə qədərki dövrü, bütün Azərbaycanda hakimiyyət dövrü isə 1501-1736-cı illəri əhatə edir

XV əsrin ortalarında siyasi mübarizəyə qoşulan Şeyx Cüneyd Ərdəbili tərk edərək 1460-cı ildə Dağıstan və Şirvana yürüş etdi. O, 1460-cı ildə Samur çayı sahilində Şirvanşah I Xəlilullah və onun müttəfiqi Qaraqoyunlu hökmdarı Cahanşahın qüvvələri tərəfindən məğlub edildi. Cüneydin oğlu Şeyx Heydər dayısı Uzun Həsənin qızı Aləmşah bəyimlə evləndi. 1470-ci ildə Uzun Həsən Təbrizdən Ərdəbilə gəlib Şeyx Heydəri Səfəvi təriqətinin başçısı təyin etdi. Şeyx Heydər öz müridlərinə 12 imamın şərəfinə başlarına 12 zolaqlı qırmızı çalma qoymağı əmr etdi. O, 3 dəfə Şirvana və Dağıstana yürüş etdi. 1488-ci il yürüşündə Şirvanşah Fərrux Yasar Sultan Yaqubun köməyi ilə Şahdağın ətəyində onu məğlub etdi. Şeyx Heydər öldürüldü. Sultan Yaqub Şeyx Heydərin oğlanları Sultanəlini, İbrahimi və 2 yaşlı İsmayılı anaları ilə birlikdə Şiraz yaxınlığındakı İstəxr qalasında dustaq etdi. 1492-ci ildə Ağqoyunlu Rüstəm Baysunqura qarşı mübarizədə qızılbaşlardan istifadə etmək üçün onları azad etdi. 1493-cü ilin yazında Sultanəlinin başçılıq etdiyi qızılbaşlar və Rüstəm Mirzənin qoşunları Əhər yaxınlığında Baysunquru məğlub etdilər. Bundan sonra Səfəvilərin güclənməsindən qorxan Rüstəm Mirzə 1494-cü ildə Ərdəbil yaxınlığında, Şəməsi deyilən yerdə Sultanəlini məğlub etdi və onu öldürtdü. Şəməsi döyüşündən

əvvəl Sultanəli İsmayılı Səfəviyyə ordeninin başçısı təyin etmişdi. Qızılbaşlar İsmayılı Gilanda (Lahicanda) yerli hakim Mirzə Əlinin sarayında gizlətdilər. O, İsmayılı səbətə qoyub ağacdan asdı və Rüstəm Mirzənin adamlarını inandırmaq üçün Qurana and içdi ki, İsmayıl Gilan torpağında deyil. İsmayıl 6 il orada qaldı

**Səfəvi dövlətinin yaranması.**

Ağqoyunluların zəiflədiyi bir şəraitdə ölkədəki pərakəndəliyi aradan qaldırmaq və Azərbaycan torpaqlarını siyasi cəhətdən birləşdirmək zərurəti yaranmışdı. Belə bir şəraitdə Səfəvilər siyasi meydana çıxdılar. 1499- cu ildə Lahicanı tərk edən İsmayıl Ərdəbilə, sonra isə tərəfdarlarının daha çox olduğu Ərzincana (Kiçik Asiyaya) getdi. İsmayıl ilk növbədə Şirvanşaha zərbə vurmağı qərara aldı. Çünki Təbrizə hərəkət etsəydi, 3 rəqiblə - Ağqoyunlulardan Əlvənd Mirzə və Sultan Muradla, eləcə də onları müdafiə edən Şirvanşah Fərrux Yaşarla toqquşmalı olardı. 1500-cü ilin payızında Şamaxını tutan İsmayıl Gülüstan qalasının yaxınlığındakı Ca- banı adlı yerdə Fərrux Yaşarı məğlub etdi. 1501-ci ilin yazında isə Fərrux Yaşarın oğlu Qazı bəyin arvadı tərəfindən idarə edilən Bakıya hücuma başladı. Qazı bəyin arvadı şəhəri Səfəvilərə təslim etməyi məsləhət görən Bakı darğası Əbdül Fəttahı edam etdirdi. Qala divarları altından lağım atan qızılbaşlar şəhəri tutub, Şirvanşahın xəzinəsini ələ keçirdilər. Gülüstan qalasını almaq üçün qayıdan İsmayıl, Əlvənd Mirzənin Təbrizdən qoşunla yola düşməsi xəbərini alıb, öz sərkərdələrindən “Siz Azərbaycan taxtını, yoxsa Gülüstan qalasını istəyirsiniz?” deyə soruşduqda, onlar “Azərbaycanı istəyirik” - cavabını verdilər.

1501-ci ilin ortalarında Naxçıvan bölgəsindəki Şərur düzündə Əlvənd- lə İsmayıl arasında döyüş qızılbaşların qələbəsi ilə başa çatdı. Əlvənd Ərzincana qaçdı. Ağqoyunluların birinci qoluna son qoyuldu. 1501-ci ilin payızında Təbrizə daxil olan İsmayıl özünü şah elan etdi və Səfəvilər dövlətinin (1501-1736) əsasını qoydu.

I Şah İsmayıl (1501-1524) öz adına xütbə oxutdurdu və pul kəsdirdi. Dövlətin paytaxtı Təbriz idi. Dövlətin əsas ərazisini Azərbaycan torpaq-
lari, əhalisinin böyük hissəsini isə Azərbaycan türkləri təşkil edirdi. Ordu qızılbaş türk soylarından təşkil olunmuşdu. Hərbi komandanlıq, maliyyə idarələri, vilayətlərin idarəçiliyi və şah sarayında bütün vəzifələr Azərbaycan əyanlarının əlində idi. Dövlət işlərində, sarayda, qoşunda və qismən diplomatik yazışmalarda Azərbaycan türk dili işlənirdi. Azərbaycan ədəbi dilinin formalaşmasında Şah İsmayılın müstəsna rolu oldu.

Səfəvi dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə olub, ölkənin iqtisadi və mədəni inkişafına şərait yaratdı, yadellilərə qarşı xalqımızın mübarizə aparmasını asanlaşdırdı. Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirməklə Səfəvilər tariximizdə misilsiz rol oynamışlar.

**Səfəvi dövlətinin imperiyaya çevrilməsi.**

Ağqoyunlu dövlətinin digər qolunun başçısı Sultan Murad Səfəvilər üçün təhlükəli rəqib olaraq qalırdı. 1503-cü ildə Həmədan yaxınlığındakı Almaqu- lağı adlı yerdə Sultan Muradın ordusunu darmadağın edən I Şah İsmayıl Şirazı tutdu. Bu qələbə ilə Ağqoyunlu dövlətinin ikinci qoluna da son qoyuldu. Bundan sonra Şah İsmayıl İranın və əcəm İraqının xeyli hissəsini, Qum, Kaşan və İsfahanı, 1504-cü ildə Yəzd və Kirmanı, 1508-1510-cu illərdə Xorasan istisna olmaqla, bütün İranı tutdu. Bağdad şəhəri də daxil olmaqla Ərəb İraqını da dövlətinin tərkibinə qatdı.

Səfəvilər dövləti şərqdə Şeybani xanın Öz- bək dövləti, qərbdə isə Osmanlı imperiyası ilə həmsərhəd oldu.

Şah İsmayılla Şeybani xan arasında əsas mübarizə iqtisadi və strateji əhəmiyyəti olan Xorasan uğrunda gedirdi. 1507-1508-ci illərdə Səfəvi- lərin Kiçik Asiyada hərbi əməliyyatlar aparmasından istifadə edən Şeybani xan Xorasanı tutmuşdu. Şah İsmayıl Xorasana hərəkət edəndə Şeybani xan Heratdan Mərvə çəkilərək uzunmüddətli müdafiəyə hazırlaşdı Şah İsmayıl hərbi hiylə işlədərək onu Mərv qalasından çıxarmaq üçün geri çəkildi. Bu zaman şahın həqiqətən geri çəkildiyini güman edən Şeybani xan Səfəviləri təqib etdi. 1510-cu il dekabrın 1-də Mərv yaxınlığında baş vermiş döyüşdə özbəklər məğlub edildilər və Şeybani xan öldürüldü.
Mərv döyüşündən sonra Herat, Mərv, Bəlx şəhərləri də daxil olmaqla Xorasan Səfəvilərin əlinə

keçdi. Beləliklə, Fərat çayından Amudərya çayına- dək geniş ərazidə Şah İsmayılın hakimiyyəti bərqərar oldu. Böyük bir imperiyaya çevrilən Səfəvi dövləti Yaxın Şərqin hərbi-siyasi həyatında mühüm rol oynamağa başladı.

**Səfəvi - Osmanlı münasibətləri.**Şah İsmayıla qarşı mübarizəyə başlamağa cəsarət etməyən Osmanlı sultanı II Bəyazid 1504-cü ildə Səfəvilər dövlətini tanıdı. Şah İsmayıl Mərv döyüşündən sonra, 1512-ci ildə Kiçik Asiyadakı Malatya və Qarahisarı tutdu. Səfəvi sərkərdəsi Məhəmmədxan Ustaclı isə Diyarbəkiri ələ keçirdi. 1512-ci ildə taxta çıxan Sultan I Səlim (1512-1520) onu hökmdar kimi tanımayan I Şah İsmayıla qarşı müharibə etmək fikrini qətiləşdirdi. O, bir sıra Avropa ölkələri ilə (Macarıstan, Venesiya, Moldova, Moskva knyazlı- ğı) sülh müqavilələri bağlayıb, Səfəvilərlə müharibəyə başladı.

Osmanlıları narahat edən Səfəvi - Avropa münasibətlərinin genişlənməsi idi. Şah İsmayılın Avropa ölkələri ilə əlaqədar yeritdiyi siyasət babası Uzun Həsənin siyasəti ilə oxşarlıq təşkil edirdi. Bu əlaqələr daha çox Osmanlıya qarşı yönəlmişdi. İtaliya diplomatları Laskarı və Morozini Səfəvilərlə danışıqlar aparmışdılar 1507-1508-ci illərdə Roma papası, Venesiya, Neapol krallığı, Kipr və Rodosla əlaqə yaradıldı. 1510-cu ildə Səfəvi diplomatı Əli bəy İtaliyaya getdi. Aralıq dənizi vasitəsilə Qərbdən odlu silah almağın baş tutmayacağını duyan şah ehtiyat tədbirlərinə əl atdı. Portuqaliya ilə əlaqəyə girib, İran körfəzi və Hind okeanı vasitəsilə Qərbdən silah almağa çalışdı və buna görə də Portuqaliyanın İran körfəzində möhkəmlənməsinə mane olmadı. Şahın bu səhvindən istifadə edən Portuqaliya 1515-ci ildə Hörmüzü ələ keçirib Səfəvilərin Hind okeanına çıxış yolunu bağladı. Şah İsmayılın bu səhvini 100 ildən sonra I Şah Abbas aradan qaldırdı və 1620-ci ildə Hörmüzü geri qaytardı.

**Çaldıran döyüşü.**1514-cü ilin yazında I Sultan Səlimin Ədirnə şəhərində çağırdığı divanda qızılbaşlarla müharibə müqəddəs vəzifə elan edildi.

Yüz min nəfərlik qoşun toplayan Sultan Səlim Osmanlı - Səfəvi sərhədini keçərək Ərzincana daxil oldu. Məhəmməd xan Ustaclı və Nurəli Xəlifə Rumlu kimi sərkərdələrinin osmanlılar üzərinə qəflətən gecə hücuma

keçmək təklifini Şah İsmayıl “Mən karvan- basan quldur deyiləm” - deyərək rədd etdi.

1514-cü il avqustun 23-də Maku yaxınlığında Çaldıran döyüşü baş verdi. Şah İsmayıl Osmanlı sərkərdəsi Malçuqoğlu ilə təkbətək döyüşdə qalib gəldi. Lakin top mərmilərinə məruz qalan Səfəvilər məğlub oldular. Yeni- çərilər şahı ələ keçirmək istəyəndə onun bənzəri olan bir qızılbaş - Sultanəli “mənəm İsmayıl” - deyərək onları öz ardınca apardı və İsmayılı ölümdən qurtardı. Sultan Səlim Təbrizi tutsa da, şahın hərbi hiylə qurmasından ehtiyatlanaraq geri çəkildi. Çaldıran döyüşü nəticəsində Səfəvilərin hərbi-siyasi nüfuzu zəiflədi və bir çox ərazilər itirildi. Şah İsmayılın özünə güvən- məsi, osmanlıların odlu silahdan istifadə etməsi və qüvvələr nisbətinin Səfəvilərin xeyrinə olmaması məğlubiyyətin əsas səbəbləri idi.

Çaldıran döyüşündən sonra Səfəvilər Ərzincan və Diyarbəkiri itirdilər. 1516-cı ilin əvvəlində baş vermiş Qoçhisar döyüşündə də qələbə qazanan osmanlılar Təbrizə daxil oldular. Onlar burada çox qalmayıb bir neçə min sənətkar ailəsini İstanbula apardılar. Çaldıran döyüşü nəticəsində osmanlılar Ərzurum şəhəri ilə birlikdə Şərqi Anadolunu və Şimali Mesopotamiyanı da tutdular. Bağdad da daxil olmaqla Ərəb İraqı Səfəvilərdə qaldı.

**Azərbaycanın birləşdirilməsi prosesinin başa çatması.**Şah İsmayılın (1501-1524) ölümündən sonra oğlu I Təhmasib taxta çıxdı (1524-1576) və onun hakimiyyəti dövründə Azərbaycan Osmanlı hücumlarına məruz qaldı. Osmanlı sultanı I Süleyman Qanuni (1520-1565) 1534-cü ildə Azərbaycana birinci yürüşü zamanı Təbrizi tutsa da, burada möhkəmlənə bilmədi. O, 1535-ci ilin yazında ikinci yürüşü zamanı yenə Təbrizi tutsa da, aclıq Osmanlı qoşununu geri

çəkilməyə məcbur etdi. Mövqeyini getdikcə möhkəmləndirən I Təhmasib ölkənin vahid dövlətdə birləşdirilməsi prosesini davam etdirirdi. 1535-ci ildə vəfat etmiş Şirvanşah II Xəlilullahın yerinə Şirvanda Şeyxşahın oğlu Şahrux taxta çıxarıldı. Onun gəncliyindən istifadə edən əyanlar özbaşınalıq etməyə başladılar Şırvan əhalisinin narazılığından istifadə edən və özünü Şirvanşahın qardaşı kimi qələmə verən bir kələntərin başçılığı i|ə 1537-cj ildə üsyan qalxdı. Onun məqsədi hakimiyyəti ələ keçirmək idi. Üsyançılar əvvəlcə Salyan və Şamaxını tutsalarda Şirvanşahın qoşunu tərəfindən məğlub edildilər. Şırvandakı qarışıqlıqdan istifadə edən I Təhmasib qardaşı Əlqas Mirzəm 20 minlik qoşunla Şirvana göndərdi və 1538-ci ildə Şirvanşahlar dövlətinin varlığına son qoyuldu. Şirvan bəylərbəyiliyinə çevnlərək Səfəvi dövlətinin tərkibinə qatıldı. Əlqas Mirzə Şirvana ilk bəylərbəyi təyin olundu. Lakin Şirvan əyanlarının mərkəzdənqaçma meylindən istifadə edən Əlqas Mirzə 1547-ci ildə Krım xanı Sahib Gəraydan kömək alıb I Təhmasibə qarş, qiyam qaldırdı. Əlqas Mirzə məğlub edildi və

Türkiyəyə qaçdı. I Təhmasib oğlu İsmayıl Mirzəni Şirvana bəylərbəyi (1547-1554) təyin etdi 1548-ci ildə Şirvanda Burhan Mirzə qiyam qaldıranda Sultan Süleyman üçüncü dəfə Azərbaycana yürüş etdi və Təbrizi tutdu Əlqas Mirzə də bu yürüşdə Sultan Süleymanla birlikdə idi. Lakin Əlqas Mirzə Həmədanda ələ keçirilərək Qəhqəhə qalasına salındı və 1549- cu ildə orada oldu. Bu yürüşdə də uğur qazanmayan osmanlılar Azərbaycam tərk etməli oldular Qızılbaş əmiri Abdulla xan Ustadı isə 1549-cu ildə Şirvanda Əlişaban adlı yerdə baş vermiş döyüşdə Şirvan qiyamçılarını məğlubiyyətə uğratdı Səfəvilərlə münasibətləri pisləşdiyinə görə 1551- ci ildə Kiş və “Gələsən-görəsən” qalasına sığınan Şəki hakimi Dərviş Məhəmməd xan da məğlub edilib öldürüldü. Şəki hakimliyi ləğv edilərək Səfəvi dövlətmə birləşdirildi. Toyğun bəy Qacar Şəki hakimi təyin edildi. Beləliklə, butun Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi prosesi başa çatdı.

1554-cü ildə artıq dördüncü dəfə Azərbaycana yürüş edən Sultan Sü- eyrnan Naxçıvandan geri qayıtmağa məcbur oldu. O, Azərbaycanı tutmaq cəhdinin boşa çıxdığım görüb 1555-ci il mayın 29-da Amasya sülhünü ağlamağa məcbur oldu. Sülh müqaviləsinə görə, Van ətrafı və Qərbi urcustan Osmanlı dövlətində, Gürcüstanın şərqi isə Səfəvilərdə qaldı.

**AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ XVI ƏSRİN İKİNCİ YARISI - XVII ƏSRİN ƏVVƏLLƏRİNDƏ**

**Səfəvi - Osmanlı müharibələri.**

1576-cı ildə I Təhmasibin ölümündən sonra oğlu II İsmayıl taxta çıxsa da 1577-ci ildə o, sui-qəsd nəticəsində öldürüldü.

Taxta çıxan Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə (1578-1587) Səfəvi dövləti zəiflədi. Çünki qızılbaş tayfa başçıları mərkəzi hakimiyyətlə hesablaşmırdılar, dövlət xəzinəsi tamamilə pimişdi. Osmanlı sultan. III Murad yaranmış vəziyyətdən istifadə edərək Səfəvılə- rə qarşı yeni müharibəyə (1578-1590) başlad. 1578-c. U avqustun 9-da Qarsdakı Çildir gölünün sahilində osmanlılar Səfəviləri məğlubiyyətə uğratdılar Ustaclı və türkmən tayfalar, arasındakı düşmənçiliyə gorə Səfəvi hərbi hissələrinin birləşə bilməməsi, ordu rəhbərliyində birliyin olmaması qüvvələr nisbətinin osmanlıların xeyrinə olmas. Çildir doyuşunda Sə- fəvilərin məğlubiyyətinə səbəb oldu. 1578-ci il sentyab.rın 9-da Alazan çay. sahilində baş vermiş döyüş isə qızılbaşların qələbəsi ilə başa çatd 1578-ci ilin noyabrında Ağsu çayı sahilində, Mollahəsənlıdə osmanhların müttəfiqi Krım xanının 12 minlik qoşunu Səfəvilər tərəfindən darmadağın edildi 1583-cü ildə Şirvan ərazisində, Niyazabadda Səfəvilər osmanlı a- ra qalib gəlsələr də, həmin il Samur çayı sahilində tarixdə «Məşəl sava- ş,» adlanan döyüşdə Osmanlı qoşunu qələbə qazandı. 1585-cı . ın.sent- yabrında Sufiyan döyüşündə də qalib gələn əsmanblar Təbnz, tutdulan Onlar Səfəvilərin daxilindəki çəkişmədən istifadə edərək 1586 1589 cu illərdə, demək olar ki, bütün Azərbaycanı ələ keçirdilər. 1590-cı ildə bağlanmış İstanbul sülh müqaviləsinə görə Xalxal, Ərdəbıl, Qaracadag və Ta- l,şı çıxmaqla qalan Azərbaycan ərazisi Osmanlı imperiyasına qatıldı.

**I Şah Abbasın islahatları.**

1587-ci ildə Mürşüdqulu xan başda olmaqla qızılbaşların ustaclı və şamlı tayfalarından ibarət Xorasan qrupu Məhəmməd Xudabəndənin 6 **yaşlı oğlu Abbası Qəzvində şah elan etdilər.**

Bu zaman osmanlılar Azərbaycan vilayətlərində, özbəklər Şərq səhədlərində, portuqaliyalılar isə İran körfəzində ağalıq edirdi. Yalnız şimalda qonşu Rusiya ilə münasibətlər nisbətən normal idi. Şah Abbas (1587-1629) Səfəvilərin itirilmiş ərazilərini geri qaytarmaq və dövlətin sarsılmış qüdrətini bərpa etmək üçün hərbi-inzibati islahat keçirdi. O, silah |) gəzdirməyin yalnız qızılbaşlara məxsus olması qaydasını və tayfa başçılığında irsiliyi ləğv etdi. Bundan sonra digər xalqların nümayəndələri də orduya xidmətə götürülə bilərdi. Şah Abbas qoşunun komplektləşdirilməsində tayfa müxtəlifliyi prinsipi tətbiq etdi və müxtəlif qoşun növlərini yaratdı:

1. Qızılbaşlar - sayı 200 min, əsas qoşun növü olub, əsasən, süvarilərdən ibarət idi, döyüşə 60 min nəfəri gedirdi.
2. Qulamlar - 15 min nəfərə çatırdı. İslamı qəbul etmiş xristian gənclərdən ibarət xüsusi qvardiya idi.
3. Tüfəngçilər - 12 min nəfər olub, əhalinin aşağı təbəqəsindən təşkil edilirdi.
4. Topçular dəstəsi - orduda 500 top vardı.

I Şah Abbas 1598-ci ildə paytaxtı Qəzvindən İsfahana köçürdü. Bu fars etnik ünsürlərinin güclənməsinə səbəb oldu. Buna baxmayaraq Qaradağ və Qəzvindən çoxlu Azərbaycan türkü yeni paytaxta köçdü və burada onlar üçün “Abbasabad” məhəlləsi salındı. Şah Abbas İsfahan tacir və sənətkarlarını 1 illiyə vergidən azad etdi. Edam edilmiş və sıxışdırılmış feodalların torpaqlarının ələ keçirilməsi hesabına şah öz şəxsi torpaqlarını artırdı. Şah Abbasa qarşı çıxan təkəli tayfasına amansız divan tutuldu. Şah dövlətin maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün vəzifələrə təyin olunan şəxslərdən xəzinəyə “peşkəş” adlı xüsusi məbləğin ödənilməsini tələb etdi. O, ruhani və oturaq əhaliyə arxalanmaq üçün vergi siyasətində onlara güzəştə getdi. Baş vəzir (etimad üd-dövlə) Hətəm bəy Ordubadi dövlətin mədaxil-məxaric siyahısını tərtib etdi. Şah Abbas mərkəzi hakimiyyətin güclənməsində marağı olan feodal və tacir-sənətkar qruplarına arxalanıb hərbi-köçəri əyanların müqavimətini qırdı. Nəticədə mərkəzi hakimiyyət gücləndirildi, iri qızılbaş əyanların müqaviməti qırıldı və Səfəvi dövlətinin qüdrəti bərpa edildi. O, İngiltərə, Fransa, İspaniya, Roma papası və Rusiya ilə danışıqlara başladı. Şah Abbas reallığı nəzərə alıb, 1590-cı il İstanbul sülhünü qəbul etdi.

Osmanlılar tutulan əraziləri Şirvan və Dərbənd bəylərbəyiliyinə və sancaqlıqlara bölmüşdülər. Şirvan 14, Dərbənd 7 sancağa bölünmüşdü. Osmanlı imperiyasının “torpağın idarə edilməsi” qanununa görə, əhali işğal zonasında xüsusi dəftərdə siyahıya alınmışdı. Xəzər dənizinə çıxan osmanlılar Niyazabadda gəmilər inşa etməyə başlamışdılar.

Səfəvilərin tərkibində qalan Azərbaycan torpaqlarında isə 1593-cü ildə Ərdəbil mərkəz olmaqla Azərbaycan bəylərbəyiliyi yaradıldı və Zülfü- qar xan Qaramanlı hakim təyin olundu. Bu bəylərbəyiliyin “Azərbaycan qoşunu” adlanan 10 min nəfərlik silahlı qüvvəsi vardı.

XVI əsrin sonunda I Şah Abbasın xarici siyasətinin üç əsas vəzifəsi var idi:

1) şimal-şərqdə Şeybaniləri əzib, Xorasanı geri almaq;

2) 1578-1590-cı illərdə osmanlıların tutduğu əraziləri geri qaytarmaq;

3) İran körfəzində Portuqaliyanın hegemonluğuna son qoyub, Hind okeanına çıxış əldə etmək. O, 1599-cu ildə birinci vəzifəni yerinə yetirərək Xorasanı geri qaytardı. İkinci vəzifənin yerinə yetirilməsində Almaniya, İspaniya, Rusiya və d. Avropa ölkələri də maraqlı idilər.

**Səfəvi - Osmanlı müharibələrinin yeni mərhələsi (1603-1639).**
Avropa dövlətləri və Rusiya səfəvilərin Osmanlı imperatorluğu ilə toqquşmasında maraqlı idilər. 1603-cü ildə Almaniya səfiri G.Tektander Şah Abbasın yanına gəldi. Osmanlıların əngəl törətdiyi Volqa - Xəzər ticarətinin canlanmasında Səfəvilərlə Rusiyanın ümumi marağı vardı 1603-cü ildə osmanlıların işğal etdikləri torpaqları geri qaytarmaq üçün yürüşə başlayan I Şah Abbas oktyabrın 21-də Təbrizi geri aldı. Osmanlıların əsas qüvvəsi darmadağın edilidi. 1603-cü ildə Cənubi Azərbaycanı azad edən şah sonra Ordubadı, Culfanı, Naxçıvanı (1603) və İrəvanı (1604) osmanlılardan geri aldı. Osmanlı qoşunlarına kömək gəlməsini eşidən Şah Abbas tutduğu ərazilərdə “yandırılmış torpaq” taktikası tətbiq etdi və “böyük sürgün” siyasətini həyata keçirdi: Naxçıvan, İrəvan, Culfa əhalisi İsfahana və Mazandarana köçürüldü. Şah bununla həm də

iqtisadi məqsəd güdərək həmin bölgələrin iqtisadiyyatını canlandırmaq istəyirdi. 1605-ci ildə Səfəvi və gürcü birləşmiş qüvvələri Şirvanın çox hissəsini azad edib, Allahverdi xanın başçılığı altında Van şəhərinə qəfil hücum təşkil etdilər. Əks-hücuma keçən arasında alındı. 1605-ci ilin noyabrında osmanlılar burada məğlub edildilər Onların yardım ala bilməməsindən istifadə edən Şah Abbas Gəncəni (1606) və Şamaxını (1607) tutdu. 1607-ci ilin yanvarında Bakı və Dərbənd əhalisi osmanlılara qarşı üsyan etdi. Həmin il bu şəhərlər də onlardan geri alındı. Şah Abbas Dərbənd əhalisini bütün vergilərdən azad etdi. Şah, Hatəm bəy Ordubadinin xahişi ilə Ordubada dəymiş zərəri və əhalisinin osmanlılara qarşı fəal mübarizəsini nəzərə alıb, onları da vergilərdən azad etdi. Beləliklə, 1603-1607-ci illərdə keçirilən hərbi əməliyyatlar nəticəsində bütün Azərbaycan torpaqları osmanlılardan geri alındı.

Ancaq müharibə davam edirdi. 1612-ci il oktyabrın 17-də Sərab sülhü bağlandı. Bununla da 1555-ci il Amasya sülhünün şərtləri bərpa edildi. Əlavə olaraq Səfəvilər rusların Terek qalasının dağıdılması haqqında Osmanlı sultanının əmrinə mane olmamalı idilər. Bununla da osmanlılar mümkün Səfəvi - Rusiya ittifaqına mane olmaq istəyirdilər Lakin 1613- cü ildə Şah Abbasın Cənubi Qafqaz xalqlarını itaətə gətirmək üçün Azərbaycanın şimal vilayətlərində və Gürcüstanda apardığı əməliyyatlara cavab olaraq osmanlılar Sərab sülhünü pozdular. 1618-ci ilin yazında Sərabda Sınıq körpü deyilən yerdə məğlub olan osmanlılar sentyabr ayında Mərənd sülhünü imzaladılar

XVII əsrin 20-ci illərində Osmanlı dövlətinin daxilində başlayan çəkişmədən istifadə edən Şah Abbas Mərənd sülhünü pozub, 1622-1623-cü illərdə Bağdad, Kərbəla, Nəcəf, Kərkük və başqa şəhərləri tutdu. 1625-ci ildə Gürcüstanda Saakidzenin başçılığı altında üsyan baş verdi. Şah Abbas həmin il Əlkitçay döyüşündə üsyançıları darmadağın etdi. Şah Abbasın nəvəsi I Şah Şəfinin hakimiyyəti dövründə (1629-1642), 1638-ci ildə Bağdad itirildi. I Şah Səfi 1639-cu ildə (17 may) Qəsri-Şirin sülhünü bağlamağa məcbur oldu. Bu müqavilə ilə 1555-ci il sülhü bir daha təsdiq edildi və XVIII əsrin birinci rübünə kimi qüvvədə qaldı.

**XVI ƏSR - XVII ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ HƏYATI**

Dövlətin başında qeyri-məhdud hakimiyyətə malik şah dururdu. Onun yanında ən nüfuzlu qızılbaş əmirlərindən ibarət məşvərətçi Ali Məclis fəaliyyət göstərirdi. Şahın dini və dünyəvi işlər üzrə müavini sayılan vəkil dövlətdə ikinci şəxs idi. Qızılbaş türk tayfalarından təşkil olunmuş xüsusi hərbi dəstələrdən ibarət olan çərik adlanan qoşun qorçubaşıya tabe idi. Vəzir mülki işlərə, mədaxil-məxaricə, sədr dini idarələrə, qazi şəriət məhkəməsinə başçılıq edirdi.

Azərbaycan Səfəvi dövlətinin ərazisi bəylərbəyiliklərə, bəylərbəyiliklər isə mahallara bölünürdü. Bəylərbəyilər qızılbaş əyanlarından təyin olunurdu. Mahallara naiblər, kəndlərə kəndxudalar, şəhərlərə kələntərlər başçılıq edirdilər. Şəhər polisinə başçılıq edən darğa kələntərə tabe idi. Ölkədə kənd təsərrüfatı, sənətkarlıqticarət inkişaf edirdi. Təbriz xalçaçılıq mərkəzi kimi məşhur idi. 1522-ci ildə Qiyasəddin Cami tərəfindən toxunan məşhur xalı hazırda Milan muzeyində saxlanılır. 1539-cu ildə Təbrizdə toxunan və misilsiz sənət əsəri olan Şeyx Səfi xalçası hazırda London muzeyindədir. Şamaxı şəhəri xaric' ölkələrə xam ipək və ipək parçalar göndərirdi. Ərdəbil yun parça toxucüluq sahəsində ən iri mərkəzlərdən biri idi. I Şah Təhmasibin 1526-cı il fərmanından aydın olur ki, burada yun şal toxunan böyük bir emalatxana var idi.

Bakı liman şəhəri olduğuna və neftinə görə tanınırdı. 300 min nəfər əhalinin yaşadığı Təbriz ən böyük şəhər idi. Əhalisinin sayına görə Gəncə ikinci yerdə dururdu. Dövrün tarixçilərindən Xandəmir "Təbrizi «dünya- nın dörddəbir hissəsinin ən abad şəhəri», Oruc bəy Bayatlı isə «Şərqin paytaxtı» adlandırmışdı. Təbrizdə yun, ipək və pambıq parça toxuculuğu, boyaqçılıq yüksək səviyyədə inkişaf etmişdi. Lakin Səfəvi ~ Osmanh müharibələri və 1555-ci ildə paytaxtın Qəzvinə köçürülməsi Təbrizin iqtisadi inkişafına mənfi təsir göstərmişdi.

Ərdəbil şəhəri ölkənin dini mərkəzi olduğuna və beynəlxalq yolların üstündə yerləşdiyinə görə sürətlə inkişaf edirdi.

XVI əsrdə Cənubi Qafqazda ipək istehsalının və ticarətin demək olar, hamısı Şamaxı və Ərəşdə cəmlənmişdi. 1562-ci "ndə İngiltərənin «Moskva» şirkəti ilə ipək ticarətinə dair Şirvan bəylərbəyi Abdulla xanla A.Cenkinson arasında saziş bağlanmışdı.

Bu dövrdə ölkədə torpaq mülkiyyətinin aşağıdakı formaları var idi.

1. Divan - dövlət torpaqları. Divan torpaqlarından gəlir qoşunun və dövlət aparatının saxlanılmasına xərclənirdi.

2. Xassə - Şah sülaləsinin torpaqları. Xassə torpaqlaindan gələn gəlir şah sarayının saxlanılmasına sərf edilirdi. Ərdəbil vilayəti Səfəvilərin xassəsinə çevrilmişdi.

3. Mülk - feodalın irsi keçən şəxsi torpaqları.

4. Tiyul - feodallara xidmət müqabilində verilən, lakin şahın icazəsi ilə irsən keçən şərti torpaqlar.

5. Vəqf - dini idarələrə məxsus torpaqlar.

6. Camaat torpaqları - kənd icmasının (camaatın) istifadə etdiyi torpaqlar.

Səfəvilər dövlətində feodal zümrəsi içərisində qızılbaşlar imtiyazlı təbəqə idi.
XVI əsrdə əhali 35 növ verg mükəlləfiyyəti yerinə yetirirdi. Malcə- hət məhsulun altıdabir hissəsini ,.$_w$kil edirdi. Maldarlar otlaqdan istifadəyə görə çobanbəyi ödəyirdilər.

I Təhmasibin 1565-ci ildə təqribən 80 min tümənlik tamğa vergisini ləğv etməsi sənətkarlıq və ticarətin inkişafına müsbət təsir göstərmişdi.

XVI əsrin ikinci yarısı - XVII əsrin birinci yarısında əhalidən yığılan vergilərin artırılması üsyanlara gətirib çıxartmışdı. 1571-1573-cü illərdə Təbriz şəhərində baş vermiş üsyan yatırılsa da, şəhər dövlətə vergi ödəməkdən azad olunmuşdu. 1615—1616-cı illərdə Şirvanda baş vermiş üsyan da yatırılmışdı.

**XVI ƏSR - XVII ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ**

XVI-XVII əsrin birinci yarısında Azərbaycanda böyük məktəb və mədrəsə şəbəkəsi var idi. Bu dövrdə coğrafiya, tarix, fəlsəfə, riyaziyyat, məntiq, qramma-
*gğ* tika və başqa fənlərə aid bir sıra elmi əsərlər yazıl
mışdı.

O dövrün görkəmli adamlarından, şair və mütəfəkkirlərindən Məhəmməd Füzulini, filosof Həqi-
rini, I Təhmasibin tarixçisi olmuş Həsən bəy Rumlunu, Oruc bəy Bayatı, I Şah Abbasın tarixçisi olmuş İsgəndər bəy Münşini göstərmək olar.

Məhəmməd Füzuli

Şah İsmayıl Marağa rəsədxanasını bərpa etdirmişdi.

1522-ci ildə Şah İsmayıl rəssam Kəmaləddin Behzadı Təbrizdəki saray kitabxanasına rəis təyin etmişdi.

XVI əsrdə Təbrizdə bədii miniatür məktəbi yaranmışdı. Bu məktəb çoxlu istedadlı rəssam yetişdirmişdi. Onlardan ən məşhuru Sultan Məhəmməd idi.

Miniatürçü rəssamlardan Kəmaləddin Behzadı, Mir Müşaviri, Mövlana Müzəffər Əlini, Mir Zeynalabdin Əlini və b.-nı göstərmək olar.

Həmin dövrdə Azərbaycanda bədii xəttatlıq da geniş yayılmışdı. Bu sahədə Mövlana Məhəmməd Həsən xüsösi yer tuturdu.

XVI-XVII əsrlərdə Azərbaycanda bir çox memarlıq abidələri tikilmişdi. Bunlardan 1544-cü ildə Qusar rayonunun Həzrə kəndində tikilmiş Şeyx Cüneyd məqbərəsini, Naxçıvanda Əlincə çayı üzərindəki körpünü, Bakının Şərq darvazalarını və s.-ni göstərmək olar